# YOEL
## PEYĞƏMBƏRİN KİTABI
## GİRİŞ

Yoel peyğəmbər İsrailin üzərinə gələn çəyirtkələrin dəhşətli hücumundan və böyük quraqlıqdan danışır. Bu hadisələrdə o, Rəbbin gününü, Onun ədalətli hökmünə qarşı çıxanların cəzalandırılacağı vaxtın əlamətlərini görür. Peyğəmbər Allahın xalqını tövbəyə çağırır və Onun xalqına verdiyi xeyir-dualı vədləri yadına salır. Burada vacib fikir odur ki, Rəbb Öz Ruhunu bütün xalqın, o cümlədən qadın və kişilərin, gənc və qocaların üzərinə tökməyi vəd edir.

***Kitabın məzmunu:***

1:1-2:17 Çəyirtkə bəlası və tövbə çağırışı
2:18-27 Rəbbin cavabı və bərəkət vədi
2:28-3:21 Rəbbin günü

***Məhv olmuş məhsul üçün yas***

1 [1]Petuelin oğlu Yoelə nazil olan
Rəbbin sözü budur:
[2]Ey ağsaqqallar, bunu dinləyin.
Ey bütün ölkə əhalisi, buna qulaq
asın,
Sizin və atalarınızın dövründə
Belə bir şey olubmu?
[3]Siz bunu övladlarınıza danışın.
Övladlarınız da öz övladlarına,
Onların övladları isə gələcək nəslə
danışsın.

[4]Kəsici çəyirtkələrdən qalanı
qaynaşan çəyirtkə yedi,
Qaynaşan çəyirtkədən qalanı
tullanan çəyirtkə yedi,
Tullanan çəyirtkədən qalanı
dağıdıcı çəyirtkə yeyib-qurtardı.

[5]Ayılın, ey sərxoşlar və ağlayın.
Ey şirin şərab içənlər, hamınız nalə
çəkin,
Ona görə ki, şirin şərab ağzınızdan
alındı.
[6]Çünki mənim torpağımın üzərinə
Qüvvətli və saysız-hesabsız bir
millət gəldi.
Onların dişləri aslan dişləri kimidir,
Onlarda dişi aslanın köpək dişləri
var.
[7]Tənəyimi məhv etdi,
Əncir ağacımı gəmirdi,
Qabıqlarını tamamilə soyub
yerə atdı,
Budaqları ağ qaldı.

[8]Cavanlıqda nişanlısını itirən,
Büsbütün çul geyinən
Bir qız kimi yas tutun.
[9]Rəbbin evindən
Taxıl təqdimi və içmə təqdimi
kəsildi,
Rəbbə xidmət edən kahinlər
yas tutur.

**1:6** *Vəhy 9:8*

27-31_Dan-Oba Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:00 Page 1078



10Zəmi viran qalıb, torpaq ağlayır,
Çünki taxıl zay oldu, təzə şərab
qurudu,
Zeytun yağı qurtardı.

11Buğda və arpaya görə
Ey əkinçilər, utanın!
Ey bağbanlar, nalə çəkin!
Çünki torpağın məhsulları
yoxa çıxdı,
12Tənək qurudu,
Əncir ağacı soldu,
Nar, xurma, alma,
Çölün bütün ağacları qurudu.
Görün ki, bəşər övladları
arasından sevinc yox oldu.

***Tövbəyə çağırın***

13Ey kahinlər, çul geyinərək yas
tutun!
Ey qurbangah xidmətçiləri,
nalə çəkin!
Ey Allahıma xidmət edənlər,
Gəlin çulda gecələyin,
Çünki Allahınızın evindən
Taxıl təqdimi və içmə təqdimi
yox oldu.
14Oruc üçün vaxt təyin edin,
Təntənəli toplantı çağırın.
Ağsaqqalları, ölkənin bütün
əhalisini
Allahınız Rəbbin evinə yığın,
Rəbbə fəryad qoparın.

15Vay o günə!
Budur, Rəbbin o günü yaxındır,
O gün Külli-İxtiyar fəlakət
gətirəcək.
16O yemək gözlərimizin önündən,
Sevinc və şadlıq Allahımızın
evindən yox olmadımı?

17Torpaq kəsəkləri altında toxumlar
çürüdü,
Zirzəmilər boş qaldı,
Anbarlar dağıldı,
Çünki taxıllar məhv oldu.
18Heyvanlar necə də inildəyir,
Naxırlar çaşbaş qalıb,
Çünki onlar otlaqsız qalıb,
Sürülər də susuzluqdan əldən
düşür.

19Ya Rəbb, Sənə fəryad edirəm,
Çünki çölün otlaqlarını alov
yandırıb-yaxdı,
Bütün düzəngahın ağacları odda
qovruldu.
20Çöl heyvanları da Səni çağırır,
Axı axar sular quruyub,
Çölün otlaqlarını alov
yandırıb-yaxdı.

***Rəbbin günü – qaranlıq və zülmət günü***

2 1Sionda şeypur çalın,
Müqəddəs dağımda bərkdən
çalın.
Qoy ölkənin bütün əhalisi titrəsin,
Çünki Rəbbin günü gəlir,
Həmin gün yaxındadır.
2Qaranlıq zülmətli bir gün!
Buludlu və qatı qaranlıq bir gün![1]
Bir qoşun gəlir
Dağlar üzərində yayılan dan kimi
Çoxsaylı və qüvvətli bir qoşun.
Elə bir qoşun ki,
Əzəldən bəri bunun kimisi
olmamışdır,[2]
Bundan sonra da nəsillər boyu
olmayacaqdır.

3Önlərindəki hər şeyi od
yandırıb-yaxır,
Arxada qalanları alov qovurur.

**1:15** *Yeş. 13:6* **2:2** – [1]*Sef. 1:15;* [2]*Çıx. 10:14*

Önlərindəki Eden bağına bənzər
yerdir,
Arxalarında olansa izsiz bir
səhradır,
Heç nə onlardan qaçıb qurtara
bilmir.

4Onlar görkəmcə ata bənzəyir.
Atlar necə çapırlarsa,
Onlar da eləcə çapırlar.
5Döyüş arabalarına bənzəyən səslə,
Küləşi yandırıb-yaxan od-alovun
səsi ilə,
Dağların zirvələri üzərindən
tullanırlar.
Onlar hücum üçün düzülən güclü
bir qoşuna bənzəyirlər.
6Onların qarşısında xalqlar sanki
ağrı çəkir,
Bütün üzlər solur.
7Qaçırlar igidlər kimi,
Divara dırmaşırlar cəngavərlər
kimi.
Hamı nizamla gedir sırasını
pozmadan.
8Heç kim yoldaşını tapdalamadan
Yolundan çıxmır.
Silahlar sırasını yarıb-keçirlər,
Lakin salamat qalırlar.
9Şəhərə doğru qaçışır,
Divarlardan atlanıb evlərə
soxulurlar,
Quldur kimi pəncərələrdən girirlər.

10Qarşılarında yer sarsılır,
Göylər lərzəyə gəlir,
Günəş və ay qaralır,
Ulduzlar işıqlarını gizlədir.
11Rəbb Öz ordusu önündə səs salır:
Ordularının sayı-hesabı yoxdur.
Onun sözünü yerinə yetirənlər
güclüdür.
Rəbbin günü möhtəşəm və çox
dəhşətlidir.
Buna kim dözə bilər?

### *Rəbbə dönün*

12Rəbb belə bəyan edir:
«İndi isə orucla, ağlamaqla, yas
tutmaqla
Bütün qəlbinizlə Mənə dönün.
13Paltarlarınızı deyil, ürəyinizi yırtın,
Allahınız Rəbbə tərəf qayıdın».
Çünki O, lütfkar və rəhmlidir,
Hədsiz səbirlidir, bol
məhəbbətlidir,
Bəla göndərməz, rəhm edər.
14Kim bilir, bəlkə rəhm edib dönər?
Sonra Allahınız Rəbbə
Taxıl və içmə təqdimlərini
verəsiniz deyə
Sizə bərəkət verər.

15Sionda şeypur çalın,
Oruc üçün vaxt təyin edin,
Təntənəli toplantı çağırın.
16Xalqı bir yerə yığın,
Camaatı təqdis edin,
Ağsaqqalları yığın,
Uşaqları və südəmər çağaları
toplayın.
Bəy öz otağından,
Gəlin də öz gərdəyindən çıxsın.
17Rəbbə xidmət edən kahinlər
Məbədin eyvanı ilə qurbangah
arasında ağlayıb desin:
«Ya Rəbb, xalqına qıyma,
Öz irsini rüsvay olmağa qoyma!
Qoyma onlar millətlərin dilinə
düşsün.
Axı nə üçün xalqlar arasında belə
deyilsin:
"Bəs hanı onların Allahı?"»

**2:4-5** *Vəhy 9:7-9* **2:6** *Nah. 2:10* **2:10** *Vəhy 8:12* **2:11** *Vəhy 6:17* **2:13** *Çıx. 34:6; Say. 14:18;*
**2:13** *Neh. 9:17; Zəb. 86:15; 103:8; 145:8; Yun. 4:2*

### *Rəbbin cavabı və bərəkət vədi*

18O zaman Rəbb Öz torpağına
qıymayacaq,
Öz xalqına rəhm edəcək.
19Rəbb xalqına belə cavab verəcək:
«Budur, sizə taxıl,
Təzə şərab və zeytun yağı
göndərəcəyəm,
Bunlarla doyacaqsınız,
Artıq sizi millətlər arasında rüsvay
etməyəcəyəm.
20Şimal tərəfdən gələn ordunu sizdən
uzaqlaşdıracağam.
Onu quraq, izsiz bir yerə,
Qarşıdakı ordunu Şərq dənizinə,[a]
Arxadan gələnləri isə Qərb
dənizinə aparacağam.[b]
Onların cəsədlərinin pis iyləri
ətrafa yayılacaq».
Həqiqətən, Rəbb böyük işlər
gördü.

21Qorxma, ey torpaq, sevin,
fərəhlən.
Bu böyük işləri görən Rəbdir.
22Qorxmayın, ey çöl heyvanları,
Çünki çölün otlaqları göyərir.
Ağac meyvəsi ilə yüklənir,
Əncir ağacı, tənək bəhrələrini
verir.

23Ey Sion xalqı,
Allahınız Rəbdə sevinin və
şadlanın,
Çünki payız yağışını sizə kifayət
qədər verir.[c]
Əvvəlki kimi payız yağışı ilə
Yaz yağışını yağdırır.
24Xırmanlar taxılla dolu olacaq,
Təknələr təzə şərab və zeytun yağı
ilə daşacaq.

25«Aranıza göndərdiyim böyük
qoşunumun –
Kəsici çəyirtkənin, qaynaşan
çəyirtkənin,
Tullanan çəyirtkənin və dağıdıcı
çəyirtkənin
Yeyib-qurtardığı illərin əvəzini
verəcəyəm.
26Bol-bol, doyunca yeyəcəksiniz,
Sizin üçün möcüzəli şeylər edən
Allahınız Rəbbin adına şükürlər
edəcəksiniz.
Xalqım əbədi olaraq rüsvay
olmayacaq.
27Onda biləcəksiniz ki,
Mən İsrailin arasındayam,
Allahınız Rəbb Mənəm,
Başqası yoxdur.
Xalqım əbədi olaraq rüsvay
olmayacaq.

### *Rəbbin günü*

28Ondan sonra isə
Bütün bəşər üzərinə Ruhumu
tökəcəyəm.
Oğullarınız və qızlarınız
peyğəmbərlik edəcək,
Ağsaqqallarınız röyalar,
Cavanlarınızsa görüntülər görəcək.
29O günlərdə qul və qarabaşların
üzərinə də
Ruhumu tökəcəyəm.

30Göylərdə və yerdə əlamətlər
göstərəcəyəm:
Qan, alov və tüstü dirəkləri
görünəcək.
31Rəbbin möhtəşəm və dəhşətli günü
gəlməzdən əvvəl

---

a **2:20** *Şərq dənizi* – Ölü dəniz.
b **2:20** *Qərb dənizi* – Aralıq dənizi.
c **2:23** *Payız yağışını sizə kifayət qədər verir* – yaxud *sizə salehliyi öyrədən müəllimi verir.*
**2:28-32** *Həv. 2:16-21* **2:31** *Mat. 24:29; Mark 13:24-25; Luka 21:25; Vəhy 6:12-13*

27-31_Dan-Oba Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:00 Page 1081



Günəş qaranlığa və ay qan rənginə
dönəcək.
32 Amma Rəbbin adını çağıran
hər kəs xilas olacaq,
Çünki Rəbbin dediyi kimi
Sion dağında və Yerusəlimdə
qurtuluş olacaq,
Rəbbin çağırdığı sağ qalanlar
arasında olacaq.

### *Rəbb millətləri mühakimə edir*

3 1 O günlərdə Yəhuda və
Yerusəlimin
Sərvətlərini geri qaytardığım zaman
2 Bütün millətləri yığıb
Yehoşafat[a] vadisinə endirəcəyəm.
İrsim və xalqım İsraildən ötrü
Orada millətləri mühakimə
edəcəyəm,
Çünki xalqımı millətlər arasında
dağıtdılar,
Torpağımı da böldülər.
3 Xalqım üçün püşk atdılar,
Oğlan uşaqlarını fahişə əvəzinə
verdilər,
İçki içsinlər deyə
Qızları şəraba satdılar».
4 «Ey Surlular, Sidonlular və bütün
Filişt vilayətlərinin əhalisi,[1] siz kim-
siniz ki, Məndən qisas alasınız. Əgər
siz Məndən qisas alsanız, çox tezliklə
Mən sizin etdiyinizin əvəzini öz ba-
şınıza döndərəcəyəm. 5 Siz qızılımı və
gümüşümü aldınız və qiymətli şeylə-
rimi məbədlərinizə apardınız, 6 Yə-
huda və Yerusəlim xalqını öz vətən-
lərindən uzaqlaşdırmaq üçün Yunan
xalqına satdınız. 7 Amma Mən onları
satdığınız yerdən götürəcəyəm, etdiyi-
nizin əvəzini öz başınıza döndərəcə-
yəm. 8 Oğul-qızlarınızı Yəhuda xalqına
satacağam və Yəhuda xalqı isə onları
ucqar bir millətə – Səbalılara sata-
caq».[2] Rəbb belə söylədi.
9 «Millətlər arasında bunu elan edin:
Döyüşə hazırlaşın,
İgidləri qızışdırın,
Bütün döyüşçülər yaxınlaşıb
yuxarı çıxsın.
10 Kotanlarınızdan qılınc,
Dəryazlarınızdan nizə düzəldin.
Qoy zəif olan "güclüyəm" desin.
11 Tələsin, ey hər tərəfdəki millətlər,
Gəlin və toplaşın.
Ya Rəbb, igidlərini oraya endir.
12 Millətlər hərəkətə gələrək
Yehoşafat vadisinə çıxsın,
Çünki hər tərəfdəki bütün millətləri
Mühakimə etmək üçün orada
oturacağam.
13 Oraq çalın,
Çünki məhsul yetişib.[1]
Gəlin ayağınızla əzin,
Çünki üzümsıxanlar doludur,[2]
Təknələr daşır.
Çünki onların pisliyi böyükdür».

14 Kütlələr, mühakimə vadisində olan
kütlələr,
Çünki mühakimə vadisində
Rəbbin günü yaxındır!
15 Günəş və ay qaralır,
Ulduzlar işıqlarını gizlədir.

16 Rəbb Siondan nərə çəkəcək,
Yerusəlimdən guruldayacaq,
Göy və yer sarsılacaq.
Lakin Rəbb Öz xalqı üçün
sığınacaq yer,
İsrail övladları üçün qala olacaq.

a **3:2** *Yehoşafat* – ibrani dilində *Rəbb mühakimə edir.* **2:32** *Rom. 10:13*
**3:4-8** – [1] *Yeş. 23:1-18; Yez. 26:1-28:26; Amos 1:9-10; Zək. 9:2-4; Mat. 11:20-22; Luka 10:13-14*
**3:4-8** – [2] *Yeş. 14:29-31; Yer. 47:1-7; Yez. 25:15-17; Amos 1:6-8; Sef. 2:4-7; Zək. 9:5-7*
**3:10** *Yeş. 2:4; Mik. 4:3* **3:13** – [1] *Vəhy 14:15;* [2] *Vəhy 14:19-20; 19:15* **3:16** *Yer. 25:30; Amos 1:2*

27-31_Dan-Oba Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:00 Page 1082



### *Allahın Öz xalqına xeyir-duası*

17«O zaman biləcəksiniz ki,
Müqəddəs dağım Sionda məskən salan
Allahınız Rəbb Mənəm!
Yerusəlim müqəddəs olacaq,
Artıq yadellilər oradan keçməyəcək.

18O gün belə olacaq:
Dağlardan şirin şərab damacaq,
Təpələrdən süd axacaq,
Yəhudanın bütün dərələrində sular axacaq.
Rəbbin evindən bir qaynaq çıxacaq,
Əbrişimlər[a] vadisini sulayacaq.
19Yəhuda xalqına qəddarlıq etdiyinə,
Torpaqlarında günahsız qan tökdüyünə görə
Misir viran qalacaq,
Edom izsiz bir səhra olacaq.
20Lakin Yəhuda əbədi qalacaq,
Yerusəlim nəsildən-nəslə keçəcək.
21Onların tökdüyü qanları
İndiyə qədər bağışlamamışam,
Lakin bundan sonra bağışlayacağam.
Rəbb Sionda məskən salır».

a **3:18** *Əbrişimlər* – ibrani mətnində *Şittim*.